**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/

Original Research Paper

# Nizami Gəncəvinin Əsərlərində Mistik Məkanların Poetikasının Tipoloji Bənzərlikləri və Struktur Xüsusiyyətləri

Zamin Babazadə
https://orcid.org/0009-0003-1395-2545
Heyvagül Həsənova
https://orcid.org/0009-0006-7982-6500
Həcər Səfərli
https://orcid.org/0009-0007-6633-6227
Rəqsanə Həsənova
https://orcid.org/0009-0007-3910-5386
Murad Qənbərov
https://orcid.org/0009-0002-5709-280X

[1, 2, 3, 4, 5] *Naxçıvan Dövlət Universitetinin magistrantı, Naxçıvan, Azərbaycan.*

Article history
Received: 12.03.2026
Revised: 19.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Murad Qənbərov, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;
Email: qenberovmurad742@gmail.com

**Xülasə**

Dünyaca məşhur klassik Azərbaycan şairi Nizaminin əsərləri Azərbaycan elmi ədəbiyyatı üçün daim baza rolunu oynamışdır. Bu və ya digər elmi mövzular üçün onu əsərləri bir çox mətləbi özündə daşıyır. Klassik Azərbaycan ədəbiyyatında bir çox sahənin tədqiq olunmasına baxmayaraq məkan anlayışları ayrıca başlıq altında tədqiq edilməmişdir. Bu məqalədə biz bütün klassik ədəbi örnəkləri təhlil edə bilmədiyimizdən Nizaminin üç əsərində mövcud olan bir neçə məkan anlayışını mistik xüsusiyyətləri, onların bənzərlikləri və struktur xüsusiyyətlərinə yer verəcəyik.

Burada əsas məqsəd Nizaminin əsərlərində mövcud mistik məkan anlayışlarının bənzərliklərini və struktur xüsusiyyətlərini araşdırmaq, onların mifoloji qaynaqlarına baxmaq, şərh və izahlar təqdim edərək mətn daxili izahlarını verməkdir.

Nəticə olaraq bu qənaətə gəldik ki, hər üç əsərdə mistik məkanlar ya bir başa ya da dolayısı ilə Nizaminin iç dünyası ilə və ya dini mətnlərlə bağlıdır.

Məqalədə müqayisəli analiz, şərh və mətn analizi metodlarından istifadə edilmişdir.

**Açar sözlər**: Nizaminin əsərlərində tipoloji bənzərlik, poema, eşq, fəlsəfi yanaşma, mistik məkan

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 22-27
**DOI:** https://doi.org/10.5281/zenodo.19571520

## GİRİŞ

Azərbaycan ədəbiyyatının klassik irsində xüsusi yer tutan böyük söz ustadı Nizami Gəncəvi yalnız poetik dilin zənginliyi ilə deyil, həm də yaratdığı obrazlar sistemi, fəlsəfi düşüncə qatları və məkan təsvirlərinin dərinliyi ilə seçilən sənətkarlardandır. Onun yaratdığı poetik dünya yalnız real hadisələrin təsviri ilə məhdudlaşmır, eyni zamanda mənəvi, simvolik və mistik qatların sintezi ilə formalaşan çoxplanlı bir bədii məkan yaradır. Xüsusilə şairin məşhur poetik silsiləsi olan Xəmsə daxilində yer alan əsərlərdə məkan anlayışı təkcə hadisələrin baş verdiyi fiziki mühit kimi deyil, həm də simvolik və mistik məna daşıyan poetik element kimi çıxış edir.

Nizami Gəncəvinin əsərlərində təsvir olunan məkanlar çox vaxt adi coğrafi mühitdən kənara çıxaraq mənəvi aləmin, daxili təlatümlərin və ilahi həqiqət axtarışının rəmzinə çevrilir. Dağlar, səhralar, bağlar, saraylar, mağaralar və müxtəlif qeyri-adi məkanlar şairin poetikasında yalnız dekorativ funksiyaya malik deyil; onlar qəhrəmanların mənəvi inkişaf yolunu, daxili dəyişimini və mistik təcrübəsini ifadə edən semantik mərkəzlər kimi təqdim olunur. Bu baxımdan Nizami yaradıcılığında məkan təsviri həm estetik, həm də fəlsəfi məna yükü daşıyır və əsərlərin ideya strukturunun mühüm komponentinə çevrilir.

Bu məqalədə Azərbaycan ədəbiyyatının qədim dövrünün önəmli simalarından biri olan Nizami Gəncəvinin poemalarında təsvir olunan mistik məkanlar məsələsinə xüsusi diqqət yetirilmişdir. Tədqiqatın əsas məqsədi şairin əsərlərində mövcud olan məkanların sadəcə fiziki mühit kimi deyil, müəyyən mistik və simvolik məna ilə yükləndiyini göstərməkdir. Nizami bir çox hallarda real və ya tanış məkanlara mistik, bəzən isə sehrli çalarlar əlavə edərək onları yeni poetik məna qatları ilə zənginləşdirir. Bu isə əsərlərin bədii atmosferini gücləndirir, poetik təsvirlərin təsir gücünü artırır və oxucuda fərqli estetik təəssürat yaradır.

Məqalədə həmçinin bu mistik məkanların əsərin ümumi poetikasına necə təsir etdiyi, hadisələrin inkişafında və obrazların daxili dünyasının açılmasında hansı funksiyanı yerinə yetirdiyi araşdırılır. Burada məkanlara fərqli mənaların yüklənməsi, onların bədii strukturdakı rolu və tipoloji bənzərlikləri xüsusi diqqət mərkəzində saxlanılır. Nizaminin poetikasında mistik məkanların yalnız təsviri element deyil, həm də fəlsəfi və simvolik məna daşıyan struktur komponent kimi çıxış etdiyi göstərilir.

Tədqiqat zamanı əsasən müqayisəli-tipoloji və poetik təhlil metodlarından istifadə edilmişdir. Bu metodlar vasitəsilə Nizami poemalarında yer alan müxtəlif mistik məkanların struktur xüsusiyyətləri, onların poetik funksiyası və digər oxşar motivlərlə bənzərlikləri araşdırılmışdır. Məqalənin aktuallığı isə ondan ibarətdir ki, klassik Azərbaycan ədəbiyyatında məkan poetikasının mistik və simvolik aspektləri hələ də geniş və sistemli şəkildə tədqiq olunmamış sahələrdən biri hesab olunur. Bu baxımdan Nizami Gəncəvinin əsərlərindəki mistik məkanların poetik və struktur xüsusiyyətlərinin araşdırılması həm klassik irsin daha dərindən anlaşılmasına, həm də Azərbaycan ədəbiyyatşünaslığında bu mövzunun elmi baxımdan zənginləşdirilməsinə xidmət edir.

Əsas hissə

Nizaminin bütün əsərlərinə məkan anlayışı xüsusi məna yükü daşıyır. "Leyli və Məcnun" əsərində səhra mistik məkan sayılır. Nizami burda səhranı yanlızlığın rəmzi olaraq verib. Çünki səhra insanlara çox uzaqdır. Məcnun insanlardan uzaq qala bilmək üçün səhraya çəkilmişdir. Nümunələrdən birinə nəzər salaq,

O yatağı səhra, o balıncı dağ (Gəncəvi, 2004. I s. 12).

Bu misrada aydın görünür ki, Məcnun üçün yatağı səhra, balıncı dağ olmuşdur. Yəni Məcnun o qədər çox əziyyət çəkib ki, yatağı səhra kimi sakit, səssiz, balıncı isə dağ qədər əzəmmətli olmuşdur. Burdan da bizə bir daha aydın olur ki, Məcnun həmin dövrdə özünü tənha hiss edib. Beləliklədə səhraya və dağa sığınıb. Dastanlarda dağlar xalqın və qəhrəmanların düşməndən qorunduğu təhlükəsiz məkan kimi təsvir olunur. Çətin vəziyyətlərdə qəhrəman dağlara çəkilir və orda gizlənərək güc toplayır.Dağ həm də göylə yer arasında əlaqə yaradan müqəddəs məkan kimi qeyd olunub. İnsanlar onu anlamasa da, üz tutduğu səhra onu anlayır və ona yurd-yuva olur. Səhra burda Məcnunu cəmiyyətdən qoruduğu üçün qoruyucu funksiya yarinə yetirmiş olur. Çünki Məcnun burda azaddır. Burda həm də səhra Məcnunun eşqini cəmiyyətin müdaxiləsindən qoruyan onu mənəvi kamilləşməyə aparan məkandır. Dağ yüksəklik, əlçatmazlıq və möhkəmlik simvolu olduğu üçün çox vaxt sığınacaq və himayə məkanı kimi çıxış edir. Beləliklə səhra və dağ Məcnun üçün sığınacaq və qoruyucu rol oynanayır.

"Murad sarıı" ifadəsi mistik məkan anlayışı ifadə edir.

Murad sarayının gözəli sənsən.
Səndən yaranmışdır incə hisslər,
Gözəl təbiətin yaranmış ənbər (Gəncəvi, 2004. I s. 172).

Burada "Murad sarayı" yalnız fiziki məkan kimi deyil, həm də arzuların çin olduğu, bütün xəyalların gerçəkləşdiyi poetik bir aləm kimi təqdim olunur. Bu məkanın mistikliyi ondadır ki, burada insanın sonsuz arzu və diləklərini ifadə etmək imkanı yaranır, hər bir istək və arzu gerçəkləşmək potensialı daşıyır. "Murad sarayı" həm simvolik, həm də mənəvi məna daşıyan

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 22-27
DOI: https://doi.org/10.5281/zenodo.19571520

bir məkan kimi çıxış edir; o, oxucuya yalnız bədii təsvir təqdim etmir, həm də arzu və ümidlərin realizasiyasının mümkünlüyünü poetik bir dildə göstərir. Burada arzuların və istəklərin gerçəyə çevrilməsi prosesi, sarayın mistik funksiyası ilə birləşərək, məkanın poetik təsirini daha da gücləndirir və əsərin ideya-estetik qatlarını zənginləşdirir.

Dördüncü mistik məkan "Dostlar sarayıdır"

Bağ, bostan yoludur ölümün izi,

Dostlar sarayına aparır bizi. (Gəncəvi, 2004. I s. 19)

Bu misralarda ölümə gedən yolun bağ və bostan yolu kimi bərəkətli olduğu vurğulanır. Bostan yalnız fiziki məkan kimi deyil, həm də əziyyət və səbrin vəhdətdə təşkil olunduğu, insanın daxili səbrini sınayan mistik bir məkan kimi çıxış edir. Dost sarayına gedən yol isə səbrli və dözümlü olmağı tələb edir; bu yol həm də hikmət dolu bir sınaq məkanıdır.

Mistik məkanlar sırasına daxil olanlardan biri də  bağdır. Nizami aşağıdakı misrada bu bağı necə mistikləşdirdiyini göstərir. "Bağ" anlayışı yalnız fiziki gözəlliyi ilə seçilən bir məkan deyil; o, həm də ruhun, mənəvinin və ideala çatmaq yolunun simvolu kimi təqdim olunur. Burada təbiət elementləri, bərəkət və harmoniyanın birləşməsi, bağın sadəcə bir bədii dekorasiya olmadığını, həm də insanın daxili aləminin əksini verdiyini göstərir. Beləliklə, Nizami bu misrada bağı mistik bir məkan kimi təsvir edərək, onu oxucu üçün həm poetik, həm də simvolik bir aləmə çevirir.

Ey cənnət bağı tək açarsız olan (Gəncəvi, 2004. I s. 185)

Bu misrada "Cənnət bağının" çox ulu və uca bir mövqedə yerləşdiyi açıq şəkildə vurğulanır. Açarsız olmaq yalnız Allahın yaratdığı ən uca, müqəddəs məkanlar üçün xarakterikdir və bu da bağın mistik statusunu daha da gücləndirir. Cənnətdəki bağ isə təkcə fiziki gözəlliyi ilə deyil, həm də bütün nemətlərin toplandığı, bərəkət və mükəmməlliyin təcəssümü olan bir məkandır. Burada hurilər və mələklər yaşayır, hər element metaforik olaraq insanın mənəvi aləminin müxtəlif qatlarını, ali mənəvi dəyərləri və ruhun saflaşmasını simvolizə edir. Məcnun artıq uzun müddət əzab-əziyyət çəkdiyindən günahları onu tərk etmişdir; nəticədə onun yeri artıq cənnət, yəni mələklərin yanıdır və bu, onun ruhani yüksəlişinin, mənəvi təmizliyinin poetik ifadəsidir.

Yuxarıdakı "fələk behişti tək gizli gülüştan" ifadəsi isə bağın nə qədər müqəddəs, ali və uca bir mətbəqədə təsvir olunduğunu göstərir. Bu, onun yalnız fiziki yox, həm də mənəvi və simvolik səviyyədə yüksək statusunu vurğulayır.

Bundan əlavə, xalq dilində "yuxarı" anlayışı əksər hallarda ucalıq, ali mövqe və müqəddəslik mənasını daşıyır. Bu yanaşma xalq ədəbiyyatında da açıq görünür; məsələn, ortaq türk dastanlarından olan "Yaradılış" dastanında Tanrı obrazı göyün yuxarı qatlarından dünyanı idarə edir və bu yuxarı qatlar ali gücün, hikmətin və müqəddəsliyin simvolu kimi çıxış edir (Ağbaba, 2008).

Digər nümunələrə də nəzər saldıqda görürük ki, Nizami real məkanı mistik məkan kimi təqdim edə bilmişdir.

Müşk səpdiyi yer Xəllux adlansın.

Camalı gözlərə daim nur versin (Gəncəvi 2004, III. səh 23).

Bu misralarda Xəllux əslində Orta Asiyada bir şəhərdir, lakin mistikada və bu poemada ilahi gözəllik və ətir məkanı rəmzidir. Şair burada müşk səpildiyi yəni gözəl ətirlərin, gözəl qoxuların olduğu yeri Xəllux adlandırmışdır. Burada mistik mənada sevgilinin ayaq basdığı gəzdiyi yerlər Xəllux adlandırılmışdır.

Başqa bir nümunədə heç bir yer mənasına gələn "qeyb" sözünün ilahi varlığın laməkan anlayışına uyğun şəkildə işləndiyini və mistik xüsusiyyət daşıdığına şahid oluruq.

Qeybdən səs gəldi: - Nizami, dayan!

O bütlərə məftun olma, düşün bir, (Gəncəvi, 2004. III s.26).

Bu beytdə "qeyb" insanın duyğu orqanları ilə dərk edə bilmədiyi, yalnız Tanrıya məlum olan gizli sirlər aləmidir. "Qeybdən səs gəlməsi" şairin və ya insanın ilham alması, ilahi bir xəbərdarlıqla doğru yola yönəldilməsi deməkdir. Burada şair özünə müraciət edərək özünü doğru yola yönəldir. Mistik məna isə burada heç kim tərəfindən məlum olmayan qeyb aləmidir.

Dörd gövhər bəxş etdi qara yerə o.

Elə başlamışdır yaradılışa, Nizami Gəncəvi "Xosrov və Şirin" poeması. Səh 25

Nizami Gəncəvi bu misrada kainatın və insanın yaradılışındakı vəhdəti simvolizə edir. "Qara yer" ifadəsi burada həm yaşadığımız maddi dünyanı, həm də insanın torpaqdan yaranmış bədənini ifadə edir. Görünüşdə cansız və adi bir maddə kimi təqdim olunan bu dünya və bədən, Yaradan tərəfindən "dörd gövhər" — yəni od, su, hava və torpaq kimi əsas ünsürlərlə zənginləşdirilmişdir. Bu ünsürlər sayəsində maddi aləmə həyat verilmiş, ona nizami bir struktura sahib olmaq imkanı tanınmışdır. Nizami bu ünsürləri "gövhər" adlandırır; çünki gövhər yalnız qiymətli daş qaşı mənasında deyil, eyni zamanda elm, hikmət və yüksək mənəvi dəyəri simvolizə edir. Beləliklə, bu ifadə vasitəsilə Nizami maddi dünyanın və insan bədəninin görünməz dəyərlərlə dolu olduğunu, hər bir elementin kainatdakı nizam və hikmətlə birləşdiyini poetik şəkildə oxucuya çatdırır və onların əhəmiyyətini vurğulayır.

Qürbətdən dünyaya buyruq olmasa.

Şüura hikmətin nuru dolmasa, (Gəncəvi, 2004 III s. 28)

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.19571520

Bu misrada qürbət bildiyimiz vətəndən ayrı düşmək mənasını vermir. Qürbət dünyadan ayrı yer olaraq təsvir olunur. Real dünyadan ayrı olan başqa bir yer təsvir olunur. Yəni dünyadan uzaq bir yer qürbət adlanıb. Əgər bu söz real məkanı əks etdirsəydi dünya daxilində bir yeri bildirərdi. Yəni insan qürbətdə dünyaya buyruq olub sözünü keçirə bilmir.

İzzət sarayına layiq görünən.

Bir xidməti ummaq olarmı bizdən? (Gəncəvi, 2004 III s. 32)

Mistik mənada bu, Tanrının ucalıq və əzəmət məqamıdır. Maddi saraylardan fərqli olaraq, ora ancaq ruhən saflaşmış, təkəbbürdən uzaq olanlar yaşayır.Yəni bu saray Nizaminin təssəvüründə yüksək bir məqamdır ki, buraya insanlar real bir yerə, məkana gedər kimi yox mənəvi cəhətdən yüksələrək çata bilərlər. Bədii düşüncədə daxili memarlıq modeli anlayışı yada düşür. Belə ki, insan düşüncə və şüurunun, mənəviyyatının hər hansı bir memarlıq obyektinə çevrildiyini görürük. "İzzət sarayı" ifadəsində isə ev sahibinin izzətinin böyüklüyünü, səxavətini göstərmək üçün "saray" ifadəsi işlənmişdir. Ümumiyyətlə Nizaminin əsərlərində bir çox yerlərdə saray mistik məkan kimi çıxış edir. Məhz elə "Leyli və Məcnun'' poemasında da səhra mistik məkan kimi yanlızlığı təsvir edir. Məcnunun insanlardan qaçıb-qurtulduğu yer olmuşdur. Bu misrada isə tamamilə fərqli bir mənanı yüksək bir yeri yüksək təhammülə çatmış insanların yaşadığı yeri təsvir etmişdir.

Bu dərdli başıma lütf et, şəfa ver!

Əhməd türbətindən mənə dəva ver! (Gəncəvi, 2004 III s. 36)

Əhməd türbəti şəfa və şəfaət məkanıdır. Mistik mənada bura ruhun şəfa tapdığı müqəddəs sığınacaqdır. Burada insanlar şəfa tapırlar. Şair "Əhməd türbəti" dedikdə peyğəmbərin şəfaətini nəzərdə tutur. Bu, insanın çıxılmaz dərdlərdən qurtulmaq üçün üz tutduğu ən uca ruhani məqamdır. Bu dünyada yerləşən real bir şəfa tapılan yer deyil.Bu ruhun şəfa tapdığı mistik məkanı bildirir.

Şəriət evinə qoymuşdur dörd hədd,

Qurmuş dörd divarla bir əbədiyyət. (Gəncəvi, 2004 III s. 36)

Adi ev bizi yağışdan, soyuqdan qoruduğu kimi, "şəriət evi" də insan ruhunu mənəvi cəhətdən qoruyur. Lakin adi ev fani və maddi olduğu halda, Nizami bu evi "əbədiyyət" üzərində qurulmuş sayır. Çünki onun qanunları zamana deyil, ilahi iradəyə söykənir. Mistik mənada bu "dörd divar" ruhun təkamül etdiyi dörd əsas sütunu təmsil edir: İnsan palçığı dörd ünsürdən od, su, hava, torpaqdan yoğrulub. "Şəriət evi" bu dörd ünsürün yaratdığı ehtirasları və ziddiyyətləri cilovlayan divarlardır. Divar burada məhdudiyyət deyil, qorunmaqdır.

Diriliĸ suyudur şerim, avazım.

Göbəkdə tək qalıb müşkləşmişəm, (Gəncəvi, 2004 III s. 55)

Zülmətdə gizlənmiş əfsanəvi suyun məkanıdır. Dirilik suyu yerləşən bir məkan yoxdur. Dini mətnlərdə daha çox dilirlik suyundan bəhs olunur. Ancaq onun real təzahürünə rast gəlmirik. Makedoniyalı İsgəndər bu suyu tapmaq üçün böyük ordularla yola çıxsa da, o, suyu tapa bilmir.

Ülkərə baş vuran şah məclisində.

Yeri öpüb, şaha təzim et sən də. (Gəncəvi, 2004 III s. 57)

Şahın məclisi o qədər ucadır ki, o, yerdə deyil, ulduzların qatındadır. Ulduzların qatı da Ülkər sözü ilə təsvir olunub. Bu, Allahın hüzuru və ya kamil insanın mənəvi daxirəsidir. O yer o qədər ucadır ki, ora ancaq ruhən yüksəlmiş kəslər daxil ola bilər.

Səxa dünyasında ondan baş olmaz.

Onun taxtı parlaq günəş adlanır, (Gəncəvi, 2004 III s. 59)

Maddi dünyadan fərqli olaraq, burada yalnız vermək və fədakarlıq hökm sürür. Reallıqdan uzaq daha çox arzu olunan həyat təsvir edilir.

Ağlından Ütarid sünbül topladı,

Odur Sünbül qaldı evinin adı. (Gəncəvi, 2004 III s. 61)

Ütarid (Merkuri) klassik ədəbiyyatda ağlın və elmin rəmzidir. Onun şahın ağlından "sünbül toplaması" bilik öyrənməsi deməkdir ki, şahın ağlı kainatın ən yüksək intellektindən də üstündür.

Qəflətdə yaşayıb dolanmaq olmaz.

Qırx yaşa qədərdir həyat nəş əsi, (Gəncəvi, 2004 III s. 73)

Qəflət dedikdə bu da dini mətlərə əsasən həqiqətdən uzaq bir aləm nəzərdə tutukur. Bu aləm insanın daxilində ruhunda yerləşir.

Zöhrə haləsini silĸələyərdi.

On Kamanı birdən dartan bir insan. (Gəncəvi, 2004 III s. 79)

Mistik mənası: Zöhrə göyün üçüncü qatında sevinc, musiqi və gözəllik ulduzudur. Xosrovun oxunun ora çatması, onun qüdrətinin sadəcə yer üzünə deyil, astral (ulduzlar) aləminə qədər uzandığını göstərir. Bu reallıqdan uzaq bir məkan və hadisədir.

"Sirlər evi" desəm, haqdır, qoynuna.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Şahzadə xəlvətdə ona yanaşdı, (Gəncəvi, 2004 III s. 79)

Real həyatda sirlər evi deyə bir məkan mövcud deyil buradakı məkan gizli hadiələrin baş verdiyi yer kimi təsvir olunur.

Zühəl pərgarından yer mərкəzinə.

Nə varsa öyrəndi, doymadı yenə. (Gəncəvi, 2004 III s. 79)

Zühəl ən yüksək göy qatıdır (yeddinci göy), yer mərkəzi isə ən aşağı nöqtədir. Burada göyün yeddinci qatı nəzərdə tutulur.

Orda nurdan doğmuş dünya taparsan.

Gözlərin nurudur, özü də cavan, (Gəncəvi, 2004 III s. 115)

Şair Xosrovun vücudunu bir coğrafiya kimi təqdim edir: o vücudda "nur" hakimdir. Nurdan doğulan dünya dedikdə Xosrov nəzərdə tutulur.

Elə кi, bir səhər Çin xəznədarı

Zər qıfılla örtdü göy qapıları, (Gəncəvi, 2004 III s. 121)

Burada Günəş "Çin xəznədarı"na, ulduzlar isə "zər"ə (qızıl pullara) bənzədilir. Səhərin açılması göyün gizli xəzinələrinin örtülməsi və yer üzündə "Çin nəqşi"-nin (işıqlı dünyanın) üzə çıxmasıdır. Bu, ruhun qaranlıqdan (cahillikdən) nura (bilincə) keçid məkanıdır.

Bəlкə burdan getsəm düz gündoğana,

Çataram günəşə, yetərəm ona. (Gəncəvi, 2004 III s. 146)

Gündoğan (Şərq) işığın, nurun və ilahi ilhamın mənbəyi sayılır. "Günəş" burada Şirinin (və ya ilahi gözəlliyin) rəmzidir. Xosrovun fiziki olaraq Şərqə tərəf getməsi, mistik mənada ruhun qaranlıqdan (məyusluqdan) nura (ümidə) doğru səfəridir. O inanır ki, nurun doğduğu məkana getsə, itirdiyi həqiqəti tapa bilər.

Xərabəyəm, sən də abad olma heç!

Buğda göstərərək arpa satırsan, (Gəncəvi, 2004 III s. 167)

Mistik mənası: Burada da ilahi konsepsiya yer alır. Xərabə yer olaraq yox insanın daxili hissləri olaraq verilir. Yəni mənin daxilim iç dünyam xərabəlikdir. Sən öz daxilini təmiz saxla və abad et.

Şəkər dolu bir ev, qənd dolu şəhər.

Bilmirdi güclüdür gələn zöhrələr, (Gəncəvi, 2004 III s. 179)

Bu ifadə maddi bir məkanı deyil, "Ləzzət" və "Həsrətin bitməsi" halını təsvir edir. Real həyatda belə bir məkan da yoxdur.

İsgəndərnamə əsərində də digər əsərlərində olduğu kimi mistik məkan anlayışına yer ayrılmışdır.

Əsərdə mistik məkana nümunə olaraq “torpaq”, “ yuxarı”, “aşağı” sözləri işlənmişdir.

Yuxarı, aşağı -nər gözə çarpan (Gəncəvi, 2004, II s. 15)

Bu hissədə yuxarı, aşağı olaraq işarə olunan yeni yer , göy nəzərdə tutulur. Nizami bu hissədə kainatın yuxarı və aşağı hissəsində nə qədər gözə çarpan, diqqət çəkən məkanlar varsa ona işarə olunub.

Torpağın köksündə qələm işlədən (Gəncəvi, 2004, IV s. 15)

Bu hissədə isə ona işarə olunur ki, Allah o qədər alidir ki , hətta torpağın bağrında qələm işlətməyə də qadirdir. Mistik baxımdan bu ifadə gizlin həqiqətləri üzə çıxardan, kainat və yaradılışın sirlərini ortaya qoyan qüvvəni ifadə edir. Sanki şair burada onu ifadə etmək istəyir ki, kainatın taleyi və sirri görünməz bir “qələm” tərəfindən yazılır.

Göyə ucalsa da düşüncə, fikir (Gəncəvi, 2004, IV s. 16).

Mistik baxımdan baxanda belə nəticəyə gəlmək olar ki, insan düşüncəsi göylərə qədər yüksələ bilər , amma ilahi həqiqətin və kainatın sirlərinin hamısını dərk etmək yenə də çətindir.

Bu köhnə dəzgahdan düşərsəm uzaq,

Tərk edər məni bu gözüm, qulağım (Gəncəvi, 2004 IV s. 18)

Şair burada mistik cəhətdən onu demək istəyir ki, dünya köhnə dəzgahdır. Əgər bu dünyanın köhnə və fani nizamından uzaqlaşa bilsəm, mənəvi həqiqətə yaxınlaşaram.

Burda da insanın məzara girəndən sonrakı halını təsvir edən şair öləndən sonrakı zamanda bütün bədən əzalarının insana necə düşmən kəsilərək onu tərk etməyindən bəhs edir. Mistik baxımdan bu misra bədənin faniliyini və ruhun əbədilik ideyasını ifadə edir. Yəni bədən torpağda qalır, ruh isə mənəvi aləmə yönəlir.

Nizami yaradıcılığında mistik məkanlar əsasən iki böyük qrupa bölünür:

Zülmət Dünyası: İsgəndərin “Dirilik suyu”nu axtarmaq üçün getdiyi qaranlıq dünya. Bura maddi aləmdən mənəvi aləmə keçid simvoludur. Xoşbəxtlər Şəhəri (Utopiya): Heç bir dövlət quruluşu, hakimiyyət və bərabərsizlik olmayan ideal cəmiyyət. Nümunə kimi İsgəndərin Nüşabənin ölkəsinə gələn zaman buranı cənnətə bənzədərək duyduğu heyranlıq bariz nümunədir.

Bu məkanlar təsadüfi elementlərdən deyil, müəyyən bir nizama əsaslanan mistkadan ibarətdir:

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Təcrid olunma: Mistik məkanlar həmişə keçilməz dağlar, dənizlər və ya zülmət arxasında yerləşir. Bu, həmin məkanın "adi" insana deyil, yalnız ruhən yetkinləşmiş şəxsə (kamil insana) açıq olduğunu göstərir.

Zamanın dayandığı məkan: Bu ərazilərdə zaman anlayışı bizim bildiyimiz fiziki zamandan fərqlənir. Məsələn, Xoşbəxtlər şəhərində ölüm və qocalıq fərqli qarşılanır, bura əbədi bahar məkanıdır. Yəni bu o deməkdir ki, insanlar o qədər xürrəm həyat sürürlər ki, onlar qocalığın nə olduğunu bilmirlər.

Təsvir olunan şəhərlər və saraylar (məsələn, Nüşabənin sarayı və ya ideal şəhər müəyyən bir memarlıq və kainat nizamı ilə üst-üstə düşür.Quranda göylərin yeddi qat  göy olduğu haqqında məlumat verilir. Hər qat göy müəyyən bir funksiyaya malikdir və kainat qat-qat nizamlanmışdır.

Xoşbəxtlər şəhəri isə göstərir ki, daxili işığa çatan insan yalnız ədalətli bir cəmiyyətdə həqiqi xoşbəxtliyi tapa bilər.

Struktur olaraq hər iki məkan "dünyəvi" reallıqdan kənardadır. İsgəndər bu məkanlara daxil olanda artıq sadəcə bir fateh deyil, bir filosof-peyğəmbər obrazına çevrilir. Nizami bu poetik məkanlar vasitəsilə oxucunu yer üzündəki maddi ehtiraslardan uzaqlaşdırıb, mənəvi ucalığa dəvət edir.

Nəticə:

Ədəbiyyat siyahısı

1.Nizami Gəncəvi "Leyli və Məcnun" .Bakı. "Lider Nəşriyyat"2004
2.Nizami Gəncəvi " İsgəndərnamə" Bakı "Lider Nəşriyyatı" 2004
3.Nizami  Gəncəvi  "Xosrov və Şirin" poeması. Bakı "Lider Nəşriyyatı" 2004
4.Nizami Gəncəvi, "İsgəndərnamə", Bakı, "Lider Nəşriyyatı" 2004.
5.A.Ağbaba: Mifologiya (Filologiya fakültəsinin tələbələri üçün dərs vəsaiti). Sumqayıt: 2008. 60 səh.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license